UOT 94 (479. 24)
https://doi.org/10.59849/2218-4783.2025.2.34

YAŞAR RƏHİMOV

# QƏRBI AZƏRBAYCAN ƏHALİSİNİN TƏRKİBİ HAQQINDA BƏZİ QEYDLƏR (İ.Şopenin "Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи" adlı əsəri əsasında)

*Qərbi Azərbaycan ərazisinin zəngin tarixi vardır. Qərbi Azərbaycan ərazisi ən qədim dövrlərdən Azərbaycan türklərinə (azərbaycanlılara) məxsus olmuşdur. Qədim türk-oğuz yurdu olan Qərbi Azərbaycanın aborigen əhalisinin Azərbaycan türkləri olması təsdiqlənmiş tarixi faktdır. Qərbi Azərbaycan tarixinin tədqiqi müasir dövrdə mühüm suyasi və elmi əhəmiyyət kəsb edir. Məqalədə İ.Şopenin "Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи" adlı əsəri əsasında həmin regionun əhalisinin tərkibi və ərazisi haqqında verilən məlumatlar, ermənilərin bu bölgəyə köçürülməsi, köçürülmədən əvvəl və sonra əhalinin tərkibi məsələləri araşdırılmışdır. XIX əsrdə çarizm Qərbi Azərbaycan ərazisində etnik tərkibi pozmağa var qüvvəsi ilə çalışsa da, buna nail ola bilmədi. Ərazi baxımından olduğu kimi, etnik baxımdan da türk-oğuz diyarı olan Qərbi Azərbaycan bölgəsində Azərbaycan türkləri (azərbaycanlılar) tarix boyu ermənilərdən çox olmuşlar. Məqsədli və düşünülmüş şəkildə həyata keçirilmiş siyasət nəticəsində sonralar azərbaycanlıların tarixi-etnik torpaqlarından deportasiya edilməsinə zəmin yaradılmışdır. Məqalənin sonunda belə bir nəticəyə gəlinmişdir ki, əzəli və əbədi Qərbi Azərbaycan torpaqları yalnız Azərbaycan türklərinə məxsus olmuşdur.*

**Açar sözlər:** *İ.Şopen, Qərbi Azərbaycan, əhali, İrəvan, mahal, əhalinin tərkibi.*

**Giriş**. Rusiya tarixşünaslığında Qərbi Azərbaycan tarixinə dair yazılan əsərlərin əksəriyyətində Rusiyanın işğalçı siyasəti dəstəklənmiş və tarixi həqiqətlər olduğu kimi verilməmişdir. XIX əsr rus qafqazşünaslarının əksəriyyəti ən çox erməni müəlliflərinin və tədqiqatçılarının əsərlərindən əldə olunan material və məlumatlar əsasında yazılar yazırdılar. Onlar hətta faktları saxtalaşdırmaqdan çəkinməyərək baş vermiş hadisələri hərtərəfli təhlil etməyə o qədər də can atmırdılar. Bu fikirləri bölgənin əhalisinə aid olan təsvirlər və tədqiqatlar haqqında da demək mümkündür. Rus qafqazşünasları Qərbi Azərbaycan bölgəsinin əhalisinin etnik tərkibi haqqında problemi ermənilərin xeyrinə təhrif etməyə çalışırdılar. Bu cəhətdən "daha irəli gedən" müəlliflərdən biri Qafqazda mülki xidmətdə olmuş İ.Şopendir. Qraf F.İ.Paskeviçin tapşırığı və göstərişi ilə 1832-ci ilin mayında tamamladığı əsərində Şopen erməni vilayətinin adını çəksə də, bu kitab İrəvan və Naxçıvanın tarixinə həsr edilmişdir. O bölgə əhalisinin torpaqlarının ermənilərə aid olmasını göstərməyə cəhd etməklə yanaşı, belə bir qeyri-elmi fikir irəli sürür ki, "erməni vilayəti"ndə yaşayan sakinlər iki kökə: ermənilərə və kürdlərə bölünür. Fikrimizcə, heç bir əsası olmayan bu yanlış fikirlər uydurma və cəfəngiyatdan başqa bir şey deyildir. Ta qədim dövrlərdən türk diyarı olan Qərbi Azərbaycan əhalisinin etnik tərkibinin türklərdən ibarət olması danılmaz bir faktdır. Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisinin türk yurdu olması bütün tarixi dövrlərdə özünü göstərmişdir. Həmin Şopen elmi cəhətdən çox yanlış olaraq Qərbi Azərbaycanın yerli türk əhalisini gəlmə elan edir və onları da keçmiş və yerli olmaqla iki yerə bölür. Heç bir əsası olmayan bu cür qeyri-elmi müddəalar tarixi həqiqətdən və reallıqdan çox uzaqdır.

**İ.Şopenin "Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи" adlı əsərində Qərbi Azərbaycan əhalisinin tərkibi.** İ.Şopen kitabında İrəvan xanlığının ərazisindəki erməniləri iki yerə bölür: birinci, yerli ermənilər, ikinci, İran və Türkiyədən köçürülən ermənilər [1, s. 41]. Rus məmuru vurğulayır ki, köçürülmə prosesinə qədər İrəvan əyalətində 2.690 nəfər erməni yaşamışdır. 1828-1829-cu illərdə İrandan "Erməni vilayəti"nə 35.500 nəfər, 1830-cu ildə Türkiyədən 21.666 nəfər erməni köçürülmüşdür. 1828-1830-cu illərdə İran və Türkiyədən köçürülən 57.226 nəfər erməni "Erməni vilayəti"ndə məskunlaşdırıl-

mışdır. İ.Şopenin məlumatına görə, 1828-ci ilə qədər İrəvanda 2.400 ailə yaşamışdır. İrəvan xanlığı ərazisində isə 11.000 kəndli ailəsi olmuşdur [1, s. 544]. Məlumdur ki, Azərbaycan qədim şəhərlərindən biri olan İrəvan şəhərində tarixən yalnız türklər (azərbaycanlılar) yaşamışlar. Bunu şəhərin adı və şəhərdəki məhəllələrin adları (doqquz məhəlləsi olmuşdur: Şiləçi, Sabunçu, Bağçalar, Börkçülər, Boyaqçı, Toxmaq, Şəhər (Şaqar), Təpəbaşı (Dəmirbulaq) da təsdiq edir. 1829-cu ildə keçirilən kameral siyahıyaalma zamanı İrəvan şəhərində 7331 azərbaycanlı (1807 ailə), 2369 nəfər yerli erməni (567 ailə) olmuşdur. 1828-1829-cu illərdə İrəvan şəhərinə İrandan 1715 nəfər (366 ailə), Türkiyədən 48 nəfər (11 ailə) erməni köçürülüb yerləşdirilmişdir [1, s. 544-546]. Bu köçürülmədən sonra belə İrəvanda azərbaycanlılar ermənilərdən iki dəfə çox olmuşdur. Rusiya İrəvan və Naxçıvan xanlıqları ərazisində inzibati idarə orqanları kimi yaratdıqları "Erməni vilayəti" iki əyaləti əhatə edirdi: İrəvan əyaləti və Naxçıvan əyaləti. İrəvan əyaləti 15 mahala bölüşdürülmüşdür: Qırxbulaq, Zəngibasar, Gəmibasar, Vedibasar, Şərur, Sürməli, Dərəkənd-Parçenis, Saatlı, Talın, Seyidli və Axsaxlı, Sərdarabad, Karpibasar, Abaran, Dərəçiçək və Göyçə mahalları. İrəvan əyalətinə daxil olan mahallarda (mahala daxil olan kəndlərlə birlikdə) əhalinin məskunlaşmasını göstərən siyahıyaalmadan bir daha aydın olur ki, indiki Ermənistan ərazisi Rusiya imperiyası tərəfindən işğal edildikdən sonra 1828-1830-cu illərdə İrandan və Türkiyədən ermənilər köçürülərək İrəvan əyalətinə daxil olan mahallara yerləşdirilmişdir. Bununla çar Rusiyası Zaqafqaziyada öz siyasətini həyata keçirmək üçün güclü sosial baza yaratmış oldu.

İrəvan əyalətinin mahallarından biri Qırxbulaq mahalı olmuşdur. Bu mahal bilavasitə İrəvan şəhərinin yaxınlığındakı yaşayış məntəqələrini əhatə edirdi. 1828-1830-cu illərdə buraya İrandan 1043 (216 ailə), Türkiyədən 231 nəfər (38 ailə) erməni köçürülüb yerləşdirilmiş və burada demoqrafik vəziyyət ermənilərin xeyrinə dəyişdirilmişdir. İrəvan əyalətinin mahallarından biri də Zəngibasar idi. Mahalın köklü sakinləri azərbaycanlılar olmuşdur. Zəngibasar mahalının 25 kəndinin yalnız 4-də (Şinqovit, Noraqovit, Kalali, Şirabad) ermənilər, 1-də isə (Göykümbəd) azərbaycanlılarla bərabər ermənilər (cəmi 32 erməni) yaşamışdır. 1828-1830-cu illərdə İrandan 147 nəfər (33 ailə) erməni köçürülüb 10 kənddə (Şinqovit, Bayat, Noraqovit, Behbudabad, Aşağı Necili, Yuxarı Necili, Şirabad, Arbat, Göykümbəd, Uluxanlı) yerləşdirildikdən sonra mahalda demoqrafik vəziyyət belə olmuşdur: 5413 azərbaycanlı (910 ailə), 2963 erməni (742 ailə) [1, s. 547-550]. İrəvan əyalətinin ən böyük mahallarından biri Gəmibasar mahalı adlanırdı. Bu mahala 52 yaşayış məntəqəsi daxil idi. Burada 1829-cu ilə qədər 4176 azərbaycanlı 42 (753 ailə), 145 erməni (34 ailə) yaşamışdır. 1829-1830-cu illərdə bu əraziyə İrandan 5359 erməni (1211 ailə) köçürülmüşdür. Mahalın ərazisinə köçürülən ermənilər azərbaycanlılar yaşayan kəndlərdə yerləşdirilmişdir [1, s. 547-558]. İrəvan əyalətinə daxil olan Vedibasar mahalı indiki Ermənistan Respublikasının Vedi rayonunun ərazisini əhatə etmişdir. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Vedibasar mahalının ərazisində yerləşən 21 kənddə (kəndlərin adlarının hamısı türk mənşəlidir) 3449 azərbaycanlı (574 ailə), cəmi 15 nəfər erməni (9 ailə) yaşamışdır [1, s. 555-558]. İndiki Ermənistan ərazisinin Rusiya tərəfindən işğalından sonra 1828-1829-cu illərdə İrandan gələn ermənilərin Vedibasar mahalının ərazisində məskunlaşdırılması prosesi başlamışdı [1, s. 697] və prosesdə Salmas, Xoy və Urmiyadan 1069 erməni (200 ailə) köçürülüb mahalın üç kəndində (Xorvirab, Dəvəli, Ulya Vedi) yerləşdirilmişdir [1, s. 555-556]. Naxçıvanın tarixi ərazilərindən olan Şərur mahalı İrəvan əyalətinin mahallarından biri olmuşdur və mahalın 50 kəndindən birində belə erməni yaşamamışdır. Buraya 1828-1830-cu illərdə İrandan 1757 erməni (336 ailə) köçürülüb yerləşdirilmişdir. İrəvan əyalətinin mahallarından biri də Talın adlanırdı. Talın mahalında 20 kənd olmuşdur. Bu kəndlərin adlarının hamısı türk mənşəli olmuşdur. Burada 420 azərbaycanlı (91 ailə) yaşamışdır. 1828-1830-cu illərdə Talın mahalına Türkiyədən 1144 erməni (186 ailə) köçürülüb, azərbaycanlılar yaşayan kəndlərdə yerləşdirilmişdir [1, s. 575-578]. Təbii ki, bunun hamısı məqsədli və düşünülmüş şəkildə həyata keçirilmişdir. Bununla da sonralar azərbaycanlıların tarixi-etnik torpaqlarından deportasiya edilməsinə zəmin yaradılmışdır. Seyidli və Axsaxlı mahalında 20 kənddə 1754 azərbaycanlı (311 ailə) yaşamışdır. Burada cəmi 28 erməni (6

ailə) var idi ki, azərbaycanlılarla qarışıq şəkildə yaşayırdılar. Sərdarabad mahalında 22 kənd olmuşdur ki, bu kəndlərdə 1837 azərbaycanlı (276 ailə), 3214 erməni (469 ailə) yaşamışdır. 1827-ci ildə Sərdarabad qalası və Sərdarabad mahalı Rusiya tərəfindən işğal edildikdən sonra erməni siyasətbazları bu işğaldan məharətlə istifadə edərək İranda və Türkiyədə yaşayan erməniləri İrəvan əyalətinin Sərdarabad mahalına köçürüb yerləşdirməyə başladılar. Bu dövrdə İrandan 356 (66 ailə), Türkiyədən 21 erməni (4 ailə) köçürülmüşdür. Sərdarabad mahalına köçürülmüş ermənilər boş kəndlərə yox, əsasən azərbaycanlılar yaşayan kəndlərə yerləşdirilmiş və mahalda demoqrafik vəziyyət ermənilərin xeyrinə əhəmiyyətli dərəcədə dəyişdirilmişdi [1, s. 583-590]. İrəvan əyalətində ermənilərin daha çox sıx yaşadığı mahal Karpibasar olmuşdur. Burada siyahıyaalmadan əvvəl 2592 azərbaycanlı (300 ailə), 5290 erməni (892 ailə) yaşamışdır. 1828-1830-cu illərdə Karpibasar mahalma İrandan 2897 (518 ailə), Türkiyədən 176 erməni (35 ailə) köçürülüb yerləşdirilmişdir [1, s. 583-590]. İrəvan əyalətinin 15 mahalından biri Abaran mahalının 39 kəndi olmuşdur. Həmin kənd adlarının hamısı türk mənşəli idi. Kameral siyahıyaalmadan qabaq İ.Şopenin kitabındakı məlumata görə burada 39 kəndin yalnız 2-sində (Muqni, Əmrili) 58 erməni yaşamışdır: Muqnidə 49 nəfər, Əmirlidə 9 nəfər [1, s. 587-590]. Mahalın ərazisindəki kəndlərin hamısı xarabalığa çevrilmişdir. Bu qənaətə gəlmək olar ki, Rusiya və İran arasındakı müharibə nəticəsində ərazinin yerli sakinləri-azərbaycanlılar öz doğma yerlərindən qaçmağa məcbur olmuşlar. Mahalın ərazisindəki kənd adları bizə bu fikri söyləməyə imkan verir ki, ərazidə yalnız azərbaycanlılar yaşamışdır. 1828-1830-cu illərdə İrandan 2018 (330 ailə), Türkiyədən 6857 erməni (111 ailə) köçürülüb [1, s. 587-594] buradakı kəndlərdə yerləşdirilmişdir. 37 kəndi olan Dərəçiçək mahalı İrəvan şəhərinin yaxınlığında yerləşirdi. Rusiyanın işğalına qədər 37 kənddən 4-də (Ərzəkan, Bjni, Tsaxkunq, Yaycı) ermənilər azərbaycanlılarla qarışıq şəkildə, 1-ində (Qamadzor) ayrılıqda yaşamışlar. Dərəçiçək mahalında Rusiya işğalından əvvəl 1300 (321 ailə) azərbaycanlı, 552 erməni (92 ailə) yaşamışdır. 1826-1828-ci illərdə Rusiya Türkiyə müharibəsindən sonra Salmas, Xoy, Alaşkert və Bayaziddən ermənilər köçürülüb mahalın ərazisində məskunlaşdırılmışdır [1, s. 591-598]. Göyçə mahalı İrəvan əyalətinin həm ərazicə, həm də əhalisinin sayma görə ən böyük mahalı idi. Bu mahal indiki Ermənistan ərazisində Çəmbərək (Krasnoselo), Basarkeçər (Vardenis), Qaranlıq (Martuni), Kəvər (Kamo) rayonlarını ərazilərini əhatə edirdi. Mahalın 59 kəndi olmuşdur və 2 kənddən başqa, (Köhnə Başkənddə (Krasnoselo) 81 nəfər, Zərzibildə (Basarkeçər) 9 nəfər erməni, bütün kəndlərdə Rusiya işğalına qədər 5607 nəfər (999 ailə) yalnız azərbaycanlılar yaşamışdır [1, s. 595-602]. "Erməni vilayəti" yaradılandan sonra XIX əsrin əvvəllərində Qərbi Azərbaycan ərazisində azərbaycanlıların yaşadığı adları aşağıda qeyd olunan 213 kənd dağıdılmış, viran edilərək xarabalığa çevrilmişdir. Dağıdılmış və xarabalığa çevrilmiş kəndlər mahallar üzrə İ.Şopenin əsərində aşağıdakı kimi qruplaşdırılmışdır: **I. Qırxbulaq mahalı:** 1. Küzəcik, 2. İynədüz, 3. Güllücə, 4. Qaraceyran, 5. Tecirabad, 6. Bəzəkli, 7. Qaraqala, 8. Gedərgöl (çay Kotora), 9. Arzap, 10. Norunus, 11. Damcılı, 12. Kitikan//Kyatikut, 13. Quyulu, 14. Qızqala, 15. Tezxarab, 16. Babacur, 17. Damagirməz, 18. Dəlləkli, 19. Kənkan, 20. Göykilsə, 21. Yaycı, 22. Qızılqala, 23. Çobangərəkməz, 24. Azaklar, 25. Hakı kənd və ya Murad təpə, 26. Ərzini. **II. Zəngibasar mahalı:** 1. Həsənağa, 2. Sinnik, 3. Qaracalar, 4. Ozanlar, 5. Dircan, 6. Noragyank, 7. Cəfərabad. **III. Gərnibasar mahalı:** 1. Məsimli, 2. Tayfan, 3. Bayraməli qışlağı, 4. Kulaq sir, 5. Zöhrablı, 6. Kürd kəndi, 7. Şəfıabad, 8. Kırbuzovand, 9. Baş Gərni, 10. Mırzik, 11. Eyranis ulya, 12. Burduk, 13. Qerqaq, 14. Gılanlar sufla, 15. Molla Əhməd, 16. Kokavus, 17. Şəhriyar, 18. Şoqaıb, 19. Eyranus sufla, 20. Kərpicli, 21. Abdallar, 22. Qurba qala uliya (Qurbağalı ulya-7.5.), 23. Qurba qala suflya (Qurbağalı sufla-7.5.), 24. Artız, 25. Yappa, 26. Əlimərdan, 27. Əli qırağı, 28. Yellicə//Ellicə, 29. Buralan, 30. Sultan təpə, 31. Əzizli, 32. Əli sorki, 33. Qelo kəndi, 34. Qara hacılı 35. Xıdırlı 36. Ədətli (Adatlı) 37. Əliqızıl 38. Bulaq başı 39. Taraş köy 40. Bayraməli kəndi, 41. Purpo, 42. İmamverdi qalası, 43. Tərəkəmələr. **IV. Vedibasar mahalı:** 1. Reyhanlı, 2. Şirazlı, 3. Qaralar, 4. Saray, 5. Çatqran, 6. Qarabağlar ulya, 7. Qarabağlar sufla, 8. Talasavan, 9. Şahablı, 10. Zəncirli, 11. Pyunut, 12. Şorsu, 13. Daşnov, 14. Həsənqala, 15. Cəfərli, 16. Ortük, 17. Vəlican, 18. Köşəkli, 19. Abbasabad, 20. Mu-

radabad, 21. Əliabad, 22. Əliqrağı, 23. Günlük, 24. Bağçacıq, 25. Xemut, 26. Qızılveran, 27. Zimmi, 28. Musacıq, 29. And, 30. Qazançı, 31. Xosrov, 32. Haxıs (Ağız – İ.B.). **V. Talm mahalı:** 1. Aqlyanlı (Əylənli – Y.R.). 2. Siçanlı, 3. Nədirxanlı, 4. Pirmələk, 5. Sutökülən, 6. Ağa kiçik, 7. Mazarcıq, 8. Pirtikan, 9. Qara qala, 10. Çiçəkli, 11. Pyusaqan, 12. Çaltəpə, 13. Mustuxlu, 14. Qoruq, 15. Parakənd, 16. Daşqala, 17. Çortulu, 18. Bəbirli, 19. Sadaqlı, 20. Zarmca, 21. Aşağı Dəmirçili, 22. Sabunçular, 23. Kilik yataq, 24. Kələş bəy kulası, 25. Bəhlul kəndi, 26. Böyük Qızıl kula, 27. Göyərçin. **VI. Sərdarabad mahalı**: 1. Rəncbəri Cəfər xan, 2. Teymurxan kəndi və ya Dövlətabad, 3. İtköy, 4. Qatırabad və ya Abdullabad, 5. Artaşat, 6. Rəhimabad//Molla Bədəl və ya Səfıabad, 7. Keçili, 8. Xam. **VII. Karpibasar mahalı**: 1. Teymurxan kolanı, 2. Ağdəmir, 3. Qaraqışlaq, 4. İnəkli, 5. Tsopanis, 6. Arpaqavasik, 7. Xaçabağ, 8. İlançalan, 9. Anberd. **VIII. Abaran mahalı**: 1. Qotur, 2. Tezxarab, 3. Şabanlı, 4. Xaçbulaq, 5. Qəznfər (köhnə), 6. Bitli, 7. Əmirli, 8. Yarbaş, 9. Məmiş kəndi, 10. Qarabulaq, 11. Hamamlı, 12. Kürdəli, 13. Cancik, 14. Cili göl, 15. Şahqulu olan, 16. Porsuxlu, 17. Comuşlu, 18. Əyri budaq, 19. Muncuxlu, 20. Pəmbək, 21. Künbəz, 22. Sibitağ. **IX. Dərəcicək mahalı**: 1. Kiçik ördəkli, 2. Alapapax, 3. Barat, 4. Qonaqgörməz, 5. Eşşəkquduran, 6. Çoban gölü, 7. Keqaç, 8. Maman, 9. Aydın, 10. Şəkərbaşı, 11. Misxana, 12. Sutökülən, 13. Çiçəkli, 14. Pir palıd, 15. Zeynal ağa X. Göyçə mahalı: 1. Buğda təpə 2. Hacı Mumuxan, 3. Allahverdi, 4. Üç təpə, 5. Kərimkənd, 6. Aşağı Altuntaxt, 7. Yuxarı Altuntaxt, 8. Dəmirçi, 9. Əyricə 10. Atdaş, 11. Axsax tauz, 12. Karvansaray, 13. Qasımbaşı, 14. Mədinə, 15. Baş Gözəldərə, 16. Xançıgizoğlu, 17. Qızılkilisə, 18. Böyükğa, 19. Ağkilisə, 20. Göyçay, 21. Sultanəli, 22. Satanağac, 23. Kərimağa kəndi, 24. Dəli Arutyun, 25. Kalasar [1, s. 509-517].

Dərələyəz mahalında doğulub 150 il ömür sürən Qalaser kənd sakini Əli kişi (Əli Bayram oğlu), 120 ildən çox yaşayan Qovuşuq kənd sakini Fatan qarı, 110 ildən artıq ömür sürən Qovuşuqlu Ballı qarı, ərəb, fars, rus və erməni dillərini bilən, Şərq tarixinə dərindən bələd olan, canlı ensiklopediya və el ağsaqqalı, 93 il ömür sürən İbrahim Mirzəli oğlu və digər uzun ömürlülər danışırdılar ki, İrəvan xanlığında və İrəvan şəhərində əvvəllər erməni olmamışdır. İrəvan şəhərində tikinti və digər işlər görmək üçün buraya az bir miqdarda erməni sənətkarları gətirilmişdir ki, bunlar "Qara Bazar" deyilən yerin yanındakı bir küçədə ("Çarşı"da) balaca daxmalarda gecələyərmişlər. İstirahət günləri xan, bəy və sultanların ailələri küçəyə çıxanda və yağışlı günlərdə onları şəhərə çıxmağa qoymazdılar. Deməli, bu yerlər yalnız türklərin məskəni olmuşdur [4, s. 28].

XIX əsrin əvvəllərində (1828) Qərbi Azərbaycanın İrəvan şəhərində 7331 azərbaycanlı, 2369 erməni, İrəvan xanlığının Zəngibasar mahalında 5413 nəfər azərbaycanlı, 603 erməni, Gərnibasar mahalında 4176 azərbaycanlı, 145 erməni, Vedibasar mahalında 3449 nəfər azərbaycanlı, 15 erməni, Sərdarabad mahalında 1004 nəfər azərbaycanlı, Seyidli və Axsaxlı mahalında 1754 nəfər azərbaycanlı, 28 erməni, Dərəçiçək mahalında 1300 nəfər azərbaycanlı, 522 erməni, Göyçə mahalında 5607 nəfər azərbaycanlı, 90 erməni, XVIII əsrdə Naxçıvan xanlığına daxil olan indi Ermənistan adlanan Qərbi Azərbaycanın Dərələyəz mahalında 4583 nəfər azərbaycanlı, 288 erməni yaşamışdır [1, s. 543-621]. Ağdərə kəndində (Dərələyəz) 1831-ci ildə 78 nəfər azərbaycanlı olmuşdur [1, s. 615]. Göründüyü kimi, həmin dövrdə İrəvan xanlığının yuxarıda adı çəkilən bütün mahallarında azərbaycanlılar ermənilərdən bir neçə dəfə çox olmuşlar.

Tarixdən məlum olduğu kimi, I Nikolayın fərmanı ilə İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "Erməni vilayəti" yaradılmışdır. Bundan sonra İ.Paskeviçin göstərişi ilə 1829-cu ilin aprelindən 1832-ci ilin mayına qədər İrəvan xanlığı ərazisində əhalinin kameral siyahıya alınması keçirilmiş və bu iş qraf Paskeviçin göstərişilə alman əsilli İ.Şopenə tapşırılmışdır. İrəvan xanlığı ərazisini gəzən və erməni mənbələrinə istinad edərək İ.Şopen "Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи" adlı kitab yazaraq 1852-ci ildə onu Sankt-Peterburq şəhərində nəşr etmişdir. Qafqazda mülki xidmətdə olan İ.Şopen öz kitabında ermənilərin mövqeyini müdafiə etsə də, tarixi həqiqətlərdən qaça bilməmiş, toponimləri olduğu kimi vermiş, əhalinin etnik tərkibini göstərmişdir. Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisində

XIX yüzillikdə və XX yüzilliyin ilk qərinəsində yaşayış məntəqələrinin əksəriyyətinin 90%-dən çoxunun adı türk mənşəli olmuşdur.

Sovet hakimiyyətinin 1920-1950-ci illərdə apardığı siyasəti nəticəsində Ermənistan SSR ərazisində yaşayan azərbaycanlıların sayı kəskin azalmışdı. 1948-1953-cü illərdə isə azərbaycanlılara qarşı soyqırımı siyasəti həyata keçirilmişdir. Sovet dövlətinin qərbi azərbaycanlılara qarşı apardığı siyasətin nəticəsi rəqəmlərlə ifadə edilsə, 1919-cu ilin 16/19 avqust ayında Dünya Sülh konfransına göndərilən ərizənin bir hissəsində belə deyilirdi: "Göstərilən rayonların əhalisi müsəlman-azərbaycanlılardır. Bir xalqdan ibarətdirlər, Azərbaycanın yerli əhalisi ilə eyni kökə, eyni dinə malikdirlər. Etnik tərkibi, dili, mənəviyyatı və məişəti Azərbaycan əhalisi ilə tam eynidir" [3].

**Nəticə.** Bu dövr rus müəlliflərinin böyük əksəriyyəti öz əsər və məqalələrində əsas diqqəti təmsil etdikləri dövlətin – Rusiyanın siyasətinə yönəldirdilər. Müəyyən təhrif və yanlışlıqlara yol verən bu müəlliflər erməni və ermənipərəst adamların verdiyi məlumatlara söykənir və bu əsasda yazılar yazırdılar. Müəlliflərin öz şəxsi ictimai-siyasi maraqlarına xidmət edən bu əsər və məqalələrdə göstərilən fakt və rəqəmləri olduğu kimi qəbul etmək düzgün olmaz. Yerli xalqın dilini bilməyən rus araşdırıcıları, tədqiqatçıları, tarixçiləri, səyyahları və b. tarixi hadisə və proseslərin əsil mahiyyətini açmağa o qədər də can atmırdılar. Bu da reallıqdan uzaq olan və qeyri-obyektiv elmi əsərlərin yaranmasına gətirib çıxarırdı. Lakin ermənipərəstliyi, müəyyən təhrif və çatışmazlıqları istisna etməklə rus müəlliflərinin bu əsərləri XIX əsr Qərbi Azərbaycanın tarixi üçün əvəzsiz mənbələrdir.

Beləliklə, ermənipərəstliyi, müəyyən təhrif və çatışmazlıqları istisna edilməklə rus mənbələri Qərbi Azərbaycanın tarixinə dair zəngin məlumatlar əks etdirməsi baxımından çox qiymətli və sanballı mənbələrdir.

## ƏDƏBİYYAT


1. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПб., 1852, 1231 s.
2. Bayramov İ. Qərbi Azərbaycan: tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti. Bakı: 2012, 288 s.
3. Fərəcov Ş. Qərbi Azərbaycan əhalisinin tarixi haqqında // Dirçəliş XXI əsr, 2008, № 126-127, s. 350-355.
4. Mirzəyev H. Qərbi Azərbaycanın Dərələyəz mahalı, Bakı: Elm, 2004, 857 s.


***AMEA Naxçıvan Bölməsi***
***E-mail: yasarrahimov@yahoo.com***

**Yashar Rahimov**

## SOME NOTES ON THE COMPOSITION OF THE POPULATION OF THE WEST AZERBAIJAN (based on the work "Historical Monument of the State of the Armenian Region in the Era of Its Annexation to the Russian Empire" by I.Chopin)

The territory of Western Azerbaijan has a rich history. The territory of Western Azerbaijan has belonged to Azerbaijani Turks (Azerbaijani) since ancient times. It is also a confirmed historical fact that the aboriginal population of Western Azerbaijan, the ancient Turkic-Oghuz homeland, are Azerbaijani Turks. The study of the history of Western Azerbaijan is of great political and scientific importance in modern times. In the article, based on the work of I. Chopin, "Historical monument of the state of the Armenian region in the epoch of its annexation to the Russian Empire", infor-

mation about the population of that region and its territory, the resettlement of Armenians to this region, and the composition of the population before and after the resettlement were investigated. In the 19th century, tsarism tried with all its might to break the ethnic composition in the territory of Western Azerbaijan, but it did not succeed. In terms of territory as well as ethnicity, the Turks of Azerbaijan (Azerbaijani) have outnumbered Armenians throughout history in the West Azerbaijan region, which is the Turko-Oghuz land. As a result of purposeful and deliberate policy, the ground was laid for the deportation of Azerbaijanis from their historical and ethnic lands. At the end of the article, it was concluded that the eternal and eternal lands of Western Azerbaijan belonged only to Azerbaijani Turks.

**Keywords:** *I.Chopin, West Azerbaijan, population, Iravan, district, composition of the population.*

**Яшар Рагимов**

## НЕКОТОРЫЕ ЗАМЕЧАНИЯ О СОСТАВЕ НАСЕЛЕНИЯ ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА (на основе произведения И.Шопена «Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи»)

Территория Западного Азербайджана имеет богатую историю. Территория Западного Азербайджана с древних времен принадлежала азербайджанским тюркам (азербайджанцам). Подтвержденным историческим фактом также является то, что коренным населением Западного Азербайджана, древней тюрко-огузской родины, являются азербайджанские тюрки. Изучение истории Западного Азербайджана имеет большое политическое и научное значение в новейшее время. В статье на основе произведения И.Шопена «Исторический памятник состояния Армянской области в эпоху его присоединения к Российской империи» приведены сведения о населении этого края и его территории, переселении армян в этот регион, а также состав населения до и после переселения. В XIX веке царизм всеми силами пытался национальный состав на территории Западного Азербайджана, но это ему не удалось. Как с территориальной, так и с этнической точки зрения тюрки Азербайджана (азербайджанцы) на протяжении всей истории превосходили численностью армян в регионе Западного Азербайджана, который является тюрко-огузской землей. В результате целенаправленной и обдуманной политики была заложена почва для депортации азербайджанцев с их исторических и этнических земель. В конце статьи сделан вывод о том, что изначальные и вечные земли Западного Азербайджана принадлежат только азербайджанским тюркам.

**Ключевые слова:** *И.Шопен, Западный Азербайджан, население, Иреван, район, состав населения.*

*(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 03.10.2025**
**Son variant 30.10.2025**